# Böyük qayıdışı təmin etmək üçün bütün tədbirlər görülür

***❐ Müasir Azərbaycan heç bir xarici qüvvədən asılılığı olmayan, müstəqil, qüdrətli dövlətdir. İllərdir davam edən iqtisadi, siyasi islahatlar öz bəhrəsini verməkdədir. Ölkəmiz bütün sahələrdə inkişaf edir, uğurlu tərəqqi planı şaxələnir və respublikamızın hər tərəfinə yayılır. Azərbaycan bu gün qlobal məsələlərdə dünyaya istiqamət verən, nüfuzlu beynəlxalq təşkilatlara sədrlik edən demokratik ölkədir.***



Əlbəttə, torpaqlarımızın işğaldan azad edilməsi ilə böyük inkişaf yolumuza yeni nəfəs, yeni ruh gəldi. İstər azad olunan ərazilərimizin iqtisadi potensialı, istərsə də bu bölgədə yaradılacaq yeni turizm imkanları ölkəmizin gücünə güc qatacaq. Məlum olduğu kimi, torpaqlarımızı otuz ilə yaxın işğal altında saxlayan ermənilər, şəhər və rayonlarımızı dağıtmış, yaşamaq üçün əlverişsiz vəziyyətə salmışlar. Yaxşı deyiblər – "Torpağı əgər qorumursansa, əkməyə, əgər əkməyəcəksənsə, qorumağa dəyməz". Qan tökərək, soyqırımı edərək özlərinin olmayanı zorla ələ keçirməyə çalışan ermənilərin bu ərazilərdə törətdikləri vandallıqlar onu göstərir ki, onlar özləri də Azərbaycan torpaqlarında əbədi qalmayacaqlarını bilirdilər. Onlar bilirdilər ki, Azərbaycan özünə aid olanı geri alacaq.

Belə də oldu. Ordumuz tarixi torpaqlarımızı işğaldan azad etdi. Ərazi bütövlüyümüz bərpa olundu. Müharibəyə qədər ölkəmizdə, ordu quruculuğunda mühüm işlər görüldü. Aydın məsələdir ki, torpaqları işğal altında olan bir ölkədə ordu quruculuğunun inkişafı prioritet məsələ olmalı idi. Bu mənada hər il dövlət büdcəsindən böyük vəsait ayrıldı. Ordumuz ən müasir döyüş vasitələri, silahlar və aparatlarla təchiz olundu. Bu, həm xalq həm də dövlət səviyyəsində üstümüzə düşən ən böyük öhdəlik idi. Düzgün və uzaqgörən planlama, uğurlu idarəetmə sayəsində Azərbaycan Ordusu ötən əsrin 90-cı illərinin əvvəllərində hökm sürən özbaşınalıq, qarışıqlıq, intizamsızlıq və kənar müdaxilələr kimi xaotik amillərin təsirindən çıxdı, güclü, müasir orduya çevrildi.

Torpaqların azad edilməsindən sonra dövlətimizin yeni bir öhdəliyi meydana gəldi – düşmənin viran qoyduğu ata-baba yurdumuzu bərpa etmək, bu ərazilərə həyatı, infrastrukturu yenidən qaytarmaq. Postmüharibə dövrünün başladığı ilk gündən atılan addımlar onu deməyə əsas verir ki, dövlətimiz bu işin də öhdəsindən uğurla gələcək.

Müharibənin bitməsi, böyük zəfərin qazanılması ilə başlanan yenidənqurma-bərpa işləri bu gün də intensiv davam etdirilir. Yeni layihələr, bərpa planları hazırlanır, bölgəyə ən müasir texnika cəlb edilir. Ən əsası, bütün bu işlər üçün dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılır. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan bu gün iqtisadi-siyasi cəhətdən tam müstəqil, heç kimdən asılı olmayan dövlətdir.

Yeri gəlmişkən, aprelin 26-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında səfərdə olublar. Bu səfər bir neçə amalı özündə cəm etdi. Lakin bunlardan ən önəmlisi Dövlət Sərhəd Xitmətinin yeni hərbi hissəsinin açılışı oldu. Ali Baş Komandan açılışda iştirak etdi. Əvvəlcə hərbi hissədə yaradılmış şəraitlə tanış olan Prezident daha sonra Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşdü. Torpaqlarımızın işğaldan azad edilməsində sərhədçilərimizin müstəsna rolundan bəhs edən ölkə başçısı bildirdi ki, Xudafərin körpüsünün azad edilməsi, Azərbaycanın azadlıq mübarizəsinin başlanğıcı olmuşdur: "Xudafərin körpüsü Müstəqillik Günündə – keçən il oktyabrın 18-də düşməndən azad edilmişdir. Bu ərazinin düşməndən azad edilməsində sərhədçilər xüsusi rol oynamışlar. Azadlıq mübarizəmiz, məhz bu istiqamətdən başlamış və Vətən müharibəsi 44 gündən sonra ordumuzun, silahlı qüvvələrimizin qələbəsi ilə nəticələnmişdir. Bu ərazidə şiddətli döyüşlər gedirdi, hər bir kənd uğrunda şiddətli döyüşlər gedirdi, biz şəhidlər verirdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. İtkilərə baxmayaraq, biz hər gün irəli gedirdik. 44 günlük müharibə dövründə bir gün belə geriyə addım atmamışıq. 44 gün ərzində hər bir gün zəfər günü idi. 44 gün ərzində Ermənistanın bütün cəhdlərinə baxmayaraq, bir dənə də uğurlu əməliyyat keçirə bilməmişlər. Bax, bu istiqamətdə onlar əks-hücum əməliyyatı planlaşdırmışdılar və bunu həyata keçirməyə başlamışdılar. Amma bu, onların sonunun başlanğıcı olmuşdur".

Əlbəttə, sərhədlərimizin tam bərpa edilməsi, dövlət müstəqilliyimizin də bərpası deməkdir. Bu səbəbdən, sərhədlərin qorunması da, eyni zamanda, müstəqilliyin ilk şərtlərindəndir. Təsadüfi deyil ki, ölkə başçısı Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışında iştirak edərək, bu amilə dövlət səviyyəsində xüsusi həssaslıq və diqqət yetirildiyini göstərdi.



***Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər. Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. "Dəmir yumruq" düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan–Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

İşğalın bitməsi ilə Azərbaycan–İran və Azərbaycan–Ermənistan sərhədləri tamailə bərpa olunub. Dövlət başçısı bu mənada bildirdi ki, sərhədçilərimiz Azərbaycan–Ermənistan sərhədini də qoruyurlar. İşğaldan azad edilməklə bərpa olunan bu sərhədin uzunluğunun 500 kilometrə yaxın olduğunu bildirən İlham Əliyev xüsusi vurğuladı ki, ərazi boyunca lazımi infrastruktur işləri aparılır və o cümlədən buraya müasir texnika cəlb edilir. Bu istiqamətdə görülən işlər, atılan addımlar onu göstərir ki, işğaldan azad olunmuş ərazilərdə böyük qayıdış üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Dövlət Sərhəd Xidmətlərinin yeni hərbi hissəsinin açılışı, Prezident İlham Əliyevin açılışdakı qətiyyətli çıxışı son dövrdə Ermənistanda baş qaldıran revanşist qüvvələrə də layiqli cavab oldu. Əlbəttə, ölkədə hökm sürən xaosu, baş verən qarşıdurmaları nəzərə aldıqda görmək olur ki, bütün bu revanşist psevdolar hakimiyyəti ələ keçirmək üçündür. Erməni xalqını növbəti fəlakətlərə sürükləyən revanşizm səsləri həm də acizlik nümunəsidir. Faktiki olaraq Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilən Ermənistan ordusu, ölkənin siyasi və hərbi rəhbərliyinin bir-birini günahlandırması da bu acizliyin göstəricisidir. Və bu riyakar mühitdə baş qaldıran saxta revanşizm xülyası Azərbaycan Ordusunun yaratdığı yeni reallığın qarşısında iflasa, çürüməyə məhkumdur.

Səfər zamanı Prezident İlham Əliyev Zəngilan Hava Limanının təməlqoyma mərasimində iştirak etdi. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq ki, bu da hər növ təyyarənin qəbul edilməsini təmin edəcək. Artıq Füzulidə də hava limanının tikintisinə start verilib. Hətta bu il Füzuli Hava Limanının uçuş-enmə zolağı istifadəyə açılacaq və bununla da biz ilk təyyarələri qəbul edəcəyik.

Ölkə başçısı bildirdi ki, hava limanının məhz burada inşa edilməsi rayonun coğrafi yerləşməsi və Zəngilanın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirilmə potensialına əsaslanaraq müəyyən edilmişdir. Fizuli, Zəngilan və nəhayət, Laçında inşa ediləcək beynəlxalq hava limanları bütünlükdə Qarabağı və Zəngilan da daxil olmaqla Şərqi Zəngəzur zonasını əhatə edəcək. Həmçinin buradan dəmir yolu, avtomobil yolları keçəcək, Naxçıvana yol açılacaq ki, bütün bunlar da bölgənin gələcək sosial-iqtisadi inkişafı üçün mühüm əhəmiyyətə malikdir.

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan məscidinə gəldilər. Ölkə başçısı bildirdi ki, Zəngilan məscidi düşmən tərəfindən dağıdılmışdır. Biz isə ermənilər tərəfindən dağıdılan, məhv edilən bütün tarixi, mədəni, dini abidələrimizi bərpa edəcəyik. Artıq bu işlərin başlandığını diqqətə çatdıran İlham Əliyev qeyd etdi ki, bu abidələrin işğaldan əvvəlki və işğaldan sonrakı görüntüləri birləşdirilir və dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Ümumilikdə, bir sıra tədbir və açılışlarla müşaiyət olunan Zəngilan və Cəbrayıl səfəri, bütün bu işlərin, bilavasitə ölkə başçısının nəzarəti altında olduğunu göstərir. Bu sahədə bütün imkanlardan istifadə olunur, yaşayış evləri, sosial-iqtisadi, o cümlədən, yol infrastrukturu sürətlə bərpa edilir.

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***